Respublika

29 oktyabr / 2021



# Bir ailənin iki qəhrəman oğlu



Ramin Qüdrət oğlu Hüseynov 8 sentyabr 1993-cü ildə Ağsu rayonunun Çaparlı kəndində dünyaya göz açmışdı. O, 2011-ci ildə Qamət Abbasov adına 284 saylı tam orta məktəbi müvəffəqiyyətlə bitirmişdir. Həmin ilin oktyabr ayında hərbi xidmətə getmiş, 2013-cü ilin aprel ayında xidmətini başa vurub evlərinə qayıtmışdı. Ermənistan ordusu tərəfindən torpaqlarımızın işğal edilməsi, Azərbaycan Ordusunun mövqeləri, kənd və şəhərlərimizin erməni quldurları tərəfindən tez-tez atəşə tutulması onu bir an belə rahat buraxmırdı.

Onun qardaşı Röyal hərbçi idi. O, gizirlik məktəbini bitirib cəbhə bölgəsində xidmət edirdi. Ramin Hüseynov da hərbçi olmağı qarşısına məqsəd qoydu. O, 2014-cü ilin yanvar ayında gizirlik məktəbinə daxil olub, hərbi biliklərə tam yiyələndikdən sonra Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə rabitə taborunun komandir müavini vəzifəsində xidmətə başladı.

2016-cı il aprelin 2-dən başlayaraq Ermənistanın hərbi hissələri Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində təxribat törətdi. Cəbhəyanı zonaya yaxın olan yaşayış məntəqələri və məcburi köçkün qəsəbələri atəşə məruz qaldı. Azərbaycan Ordusu qısa müddətdə həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə adlanan yüksəklik ələ keçirildi, düşmənə məxsus 6 tank, 15-dək artilleriya qurğusu məhv edildi. Həmin döyüşlərdə Ramin və Röyal Hüseynov qardaşları böyük şücaət göstərmişlər.

27 sentyabr 2020-ci ildə kəndlərimiz və hərbi mövqelərimiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutuldu. Müzəffər Azərbaycan Ordusu düşmən təxribatının qarşısını almaq məqsədilə əks-hücum əməliyyatlarına başladı.

Vətən müharibəsi başlayan andan Ramin və Röyal Hüseynov qardaşları öz taborlarının əsgər və zabitləri ilə addım-addım irəliləyərək əzəli və əbədi torpaqlarımızın yağı düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edirdilər. Düşmən Müzəffər Azərbaycan Ordusunun qarşısında dayana bilmir və döyüş mövqelərini tərk edərək qaçırdı.

8 oktyabr 2020-ci il tarixdə gizir Ramin Hüseynov Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə gizir Ramin Qüdrət oğlu Hüseynov ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidin qardaşı gizir Röyal isə Vətən müharibəsində sona qədər iştirak etmiş və torpaqlarımızın erməni quldurlarından azad olunmasında qəhrəmanlıq göstərmişdir. Ölkə başçısının sərəncamları ilə gizir Röyal Qüdrət oğlu Hüseynov "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Röyal Hüseynov bu gün də hərbi xidmətini şərəflə davam etdirir.

**Kamil İSMAYIL,**
**"Respublika".**